# QIRMIZI QARI

Haqverdiyev Əbdürrəhimbəy

Seçilmiş əsərləri.Cild 1

Pdfləşdirən: kitablar sayti

http://www.kitablar.com

***************************************************************************

BİP PƏRDƏDƏ (XƏYALI)

İŞTİRAK EDƏNLƏR

Q ı r m ı z ı  q a r ı
P a d ş a h
V ə z i r
B a r g a h  ə m ə l ə s i
K ə n i z
B i r i n c i  q a r o v u l ç u
İ k i n c i  q a r o v u l ç u
R ə q q a s ə l ə r
Q ı r m ı z ı  ə s g ə r l ə r

Padşahın qəbul otağı. Müqabilində, qapının hər tərəfində bir qarovulçu, əlində nizə, dayanıb. Taxtın dalından Q ı r m ı z ı  q a r ı çıxıb, taxtın üstündə əyləşir.

B i r i n c i  q a r o v u l ç u. Taxta əyləşəni görürmüsən?
İ k i n c i  q a r o v u l ç u. Elə bu şəhərdə əhvalatı söylənilən Qırmızı qarı deyilmi? Bu dəqiqə nizəni onun ürəyinə soxacağam. Gözəl fürsətdir. Padşahdan ziqiymət ənam alaram. (Hücum edir.) Ey ifritə, nə vaxtadək sən bu camaatı narahat edəcəksən?! Al nizəni! (İstəyir vursun, qarı əli ilə işarə edir, qarovulçunun əlindən nizə düşür. Qarı qalxıb ahəstə orta qapıdan çıxır. Qarovulçu dalınca baxır.)
B i r i n c i  q a r o v u l ç u (ikinciyə). Mən səni belə qorxaq bilməzdim. Mən bu saat onu öldürərəm. (Qarının dalınca çıxır, məyus geri qayıdır). Yoxdur, bilmirəm yerə batdı, yainki göyə çıxdı? Nə vaxtadək belə böyük bir hökumət bu qoca qarının əlində aciz qalacaq?
Ayaq səsi gəlir, qarovulçular cəld özlərini düzəldirlər. Üzlərini tuturlar qapıya. Qabaqda v ə z i r,
dalınca b a r g a h  ə m ə l ə s i daxil olurlar.
V ə z i r.  Siz çoxdanmı buradasınız?
B i r i n c i  q a r o v u l ç u.  Bir saatdan  artıqdır.
V ə z i r.  Otağa kənar adam girməyibdir ki?
İ k i n c i  q a r o v u l ç u. Otatda heç kəs yox idi. Qəflətən padşahın taxtı üstündə qırmızı libasda bir qarı göründü. Hücum etdik öldürməyə, gözümüzdən qeyb oldu.
V ə z i r. Bu ifritə neçə vaxtdır ki, şəhərin oyan-buyanlarında görünməkdədir. Yəqin böyük bir hadisə əmələ gətirəcəkdir.B a r g a h  ə m ə l ə s i. Üç ildir ki, görünməyirdi. Hamı onu ölmüş hesab edirdi. Nə hadisə eləmiş ola bilər? Padşahın canı salamət, məmləkətdə əmin-asayiş. Vətən və padşah bədxahları hamısı dəstigir, möhkəm zəncirlərə vurulub. Kənar məmləkətlərdən heç bir afət gözlənmir. Nə ola bilər?
V ə z i r. Beş il bundan qabaq gecələr Qırmızı qarı bargahın qabağında göründü. Az çəkmədi ki, padşahın ən sevimli arvadı ficətən vəfat etdi. İki il ondan sonra yenə qarını gecə vaxtı topxana meydanında görüblər. Sübh vəliəhdin şikarda atdan

yıxılıb öldüyünün xəbərini gətirdilər. O vaxtdan qarı yox olmuş idi. İmdi yenə gəlib, padşahın bütün halını mütəğəyyir edib.P a d ş a h (daxil olur). Ox!... O məlun yenə şəhərin küçə və meydanlarında peyda olur. Kimdir məni onun şərindən xilas etsin?
Rəqqasələr oynayır.
V ə z i r. Qibleyi-aləm. Ona heç bir silah kar etməyir. Güllə vururlar, öldürməyir. Xəncər ətini kəsməyir. Hətta bir az vaxt bundan əqdəm qarovulçular qarını həmçinin bu otaqda, sizin taxtınızın üstündə əyləşmiş görüblər. Qarovulçular öldürmək üçün üstünə hücum ediblər, nəhayət qarı gözdən qayıb olubdur.P a d ş a h. Mənim taxtımın üstündə əyləşmiş görüblər?! Bu təzə xəbərdir.V ə z i r. Padşahım, ehtiyat ediniz.P a d ş a h. Nə ehtiyat edəcəyəm? Ancaq onun yenə görünməyi oğlumun və övrətimin ölümünü yadıma salıbdır. Halımı pis edir. Neçə gündür ki, qarı şəhərdə görünür?
V ə z i r. İlk dəfə, cümə günü məscidin minarəsinin birində azan çəkilən vaxt, qarı minarənin üstündə görünübdür. Neçə nəfər fərraş minarənin ayağında onun düşməyinə müntəzir olublar. Oradan qarı düşməyib, minarədən qeyb olubdur.P a d ş a h. Yox, bu nümayişlər mənim xoşuma gəlməyir, əlac lazımdır. Ələlxüsus da mənim taxtımda görünmüş. Daha harada görünübdür?
V ə z i r. Bir də kəniz nəql edirdi, çaharşənbə günü axşam, sizin yatacaq otağınızda görüb. Nə qədər səslənibdir, qarı cavab verməyib.
P a d ş a h (hiddətlə). Mənim yatacaq otağımda! Bu saat sən kənizi bura çağır. (Fikir edir.) Mənim yatacaq otağımda!?V ə z i r. Qibleyi-aləm, təşvişə heç bir səbəb yoxdur. Şükr olsun allaha, canınız salamət, hamı məxluq dəstgir. Şəhərlərin izhari-übudiyyət xəbərini hər gün eşidirik. Bütün məmləkət sizin ömrünüzə dua göndərirlər. Qorxu heç yerdən ola bilməz.

K ə n i z daxil olur.

P a d ş a h (kənizə). Qarını necə gördün, söylə.K ə n i z (dizi üstə çökür). Padşahım, çaharşənbə günü, azan vaxtı rəxtxab düzəltmək üçün sizin yatacaq otağınıza getmişdim. Qapını açan tək gördüm Qırmızı qarı çarpayının başı tərəfində durub, əyilib-alxmaqdadır. Onu görəndə dizlərimə titrəmə düşdü. İstədim qışqıram, qarı mənə bir nəzər ilə baxdı ki, qorxudan nəfəsim tutuldu. Səs çıxara bilmədim. Nazik bir səs ilə xəbər aldım: sən kimsən, burada nə iş görürsən? Mənə heç bir cavab verməyib, otaqdan çıxdı. Dalınca mən də çıxdım eşiyə. Gördüm ki, yoxdur. Dübarə otağa qayıdıb, çarpayının üstündən bir parça zəncir tapdım. (Göstərir.)P a d ş a h. Buraya ver zənciri. (Alıb baxır.) Özüdür, özü! (Kənizə) Dur ayağa, mürəxxəssən, gedə bilərsən. (Baş əyib gedir.) Ax, vəzir, çaharşənbə günündən bəri bu zəncir parçası mənə rahatlıq verməyir. Bir qədər gözümə yuxu gedən tək bu zəncir parçası vaqiədə həmin Qırmızı qarının əlində başımın üstündə zınqıldayan görüb həmin dəqiqə hövlnak yuxudan oyandım.V ə z i r. Qibleyi-aləm, qarının vahiməsi əbəs yerə camaatın ürəyinə düşüb, hamını qara basıbdır. Qarının nə həddi var sizin yatacaq otağınıza girsin və hətta gəlib taxtınızın üzərində əyləşsin?!P a d ş a h. Mənə təsəllimi verirsən? Bəs bu zəncir parçasına nə deyirsən? Bunun mənasını bilmirsən, vəzir? Qarı bu zənciri qoymaqda xəbər verir ki, cəmi zəncirə tutulanların intiqamını səndən alacağam, (Birdən.) Mənim dilimdən əmr ver. Məmləkətin hər bir şəhərinə, qəsəbəsinə və kəndinə casuslar göndərsinlər, hər bir yerdə zərrəcə inqilab nişanəsi görünsə,onun kökünü kəssinlər. (Fikir edir.)V ə z i r. Qibleyi-aləm, rəiyyətdə üsyan yoxdur. Üsyançılar hər nə var, ərz etdim ki, tutulub. On yeddi kənd top atəşi ilə yer

üzündənsüpürülüb, həbsxanalar üsyançılar ilə doludur. Hamısının boyunlarına zəncirlər vurulub, hərəkət etməyə halətləri yoxdur.P a d ş a h. Dayan! Yenə zəncir dedin, zəncir yadıma düşdü, kifayətdir, deyirsən əmniyyətdir?
V ə z i r. Bəli, qurban.P a d ş a h. Çox gözəl, inanıram sözünə, amma gərək hər təhər olsa Qırmızı qarının dəfi üçün çarə etmək. Nə qədər bu ifritə sağdır, mən rahat olmayacağam.V ə z i r. Qibleyi-aləm, bu qarı bir sahirədir. Məmləkətin sahirlərini buraya cəm edərəm. Yəqin onun şərrinin dəfi üçün bir əlac tapılar. Siz, qibleyi-aləm, qara fikirləri başınızdan kənar ediniz. Məşğələnizi bir neçə gün eyş-işrətə verin.
İnşallah tezlik ilə sahirlərin qüvvəsi ilə qarı yox olar.P a d ş a h. Gözəl məsləhətdir, əmr ver hərəmxanada olan rəqqasələr buraya cəm olsunlar.
Vəzir çıxır, padşah zəncir parçasını alıb baxır. Bu halda Q ı r m ı z ı q a r ı qapının ağzında peyda olur.
P a d ş a h. Sənsən bu dünyanı qarışdıran məlun! (Qılıncı çəkib, yüyürür qarının üstünə.) Al, məlun!Q a r ı (əli ilə işarə edir). Dayan, nə sənin və nə də sən tək dünyadakı padşahların qılıncı mənə yara vura bilməz. Mən qırmızı tufan elçisiyəm. O tufan bu saatda yer üzündə əsməkdədir. Onun qarşısında padşahlar taxtı davam gətirməyib, birbəbir sərnigun olmuşlar. İndi də qırmızı tufan sənin bargahına yaxınlaşmaqdadır. Bu gün, gün batanda sən də gün ilə batacaqsan! (Qarı gedir. Padşah onun dalınca çıxır, məjyc qayıdır yerində əyləşir. Rəqqasələr daxil olurlar.)P a d ş a h. Siz gərək bu gün məni lazımınca özünüzdən razı edəsiniz. Xələtin hesabı olmayacaqdır. Xəzinənin ağzını açıb cəmi dövlətimi qara fikirləri başımdan çıxaranlara verəcəyəm. Di başlayın.

Rəqqasələr oynayırlar.

V ə z i r (daxil olur). Qibleyi-aləm, məmləkət əldən getdi. Hər bir yerdən bu saatda xəbər gəlibdir ki, qırmızı tufan məmləkəti bürüyübdür. Tufanın qabağında bir nəfər oğlan, özü də qırmızı libasda! Ağ atın ajaqları yerə dəyməyir və qabağında heç bir qüvvə davam gətirməyir. Mətanət göstərən də förən yanıb, puç olur. Zəncirlər özü özbaşına qırılıb yerə tökülür. Hər bir yerdə rəiyyət və qoşun onun tərəfinə keçirlər. Tufan bürüyübdür, tədbir lazımdır, tədbir.
P a d ş a h. Əmr ver şəhər darvazalarını, bargahın qapılarını və pəncərələrini möhkəm bağlasınlar. Qarovullar öz yerlərində dayansınlar. Vay o adamın halına səhlənkarlıq edə! (Vəzir gedir, rəqqasələrə) Dayanmayınız! Bir növ rəqs ediniz ki,ayaqlarınızı qoyduğunuz yerlər lərzəyə gəlsin! (Musiqi çalınır, rəqqasələr oynayırlar). Habelə, qoçaqlarım, habelə, iyidlərim. (Bu vaxt ətraf qızarır, ildırım çaxır, gurultu səhnəni tutur, pərdə düşənə qədər gurultu səsi kəsilməyir). Ax! Qırmızı tufan bargahı bürüdü. Eybi yoxdur, qapılar bağlıdır. Qarovullar yerlərindədirlər. Heç kəsin əli mənə çatmaz! Mən
hamıdan qüvvətliyəm, qüvvətli! Ax, yenə bu zəncir səsi gəlir! Nə yaman halətdir! Çalın, oynayın, mən də sizinlə oynayacağam! (Rəqqasələr qarışıb oynayırlar.) Gözəl aləmdir! Əcəb aləmdir!
Oynayırlar. Padşah bihalət yıxılıb ölür. Qapılar özbaşına açılır. Qabaqca iki cərgə ə s g ə r daxil olub dururlar. Onların dalınca bir nəfər qırmızı libaslı o ğ l a n əlində bayraq qapının arasından daxil olur.

Q ı r m ı z ı   Q a r ı (küncdən çıxır). Qırmızı tufan bu məmləkəti də aldı! İndi daha mənim burada vəzifəm bitdi. Bu məmləkətdən mən indi başqa məmləkətə gedirəm. Bu cavan nəinki tək bu padşahın, cəmi dünya padşahlarının qənimidir.
Onun ismi cavan və insaniyyətdir! (Qarı gedir.)

P Ə R D Ə.